# EKOLOJİ TƏHLÜKƏSİZLİK SFERASINDA MİLLİ QANUNVERİCİLİK
## (Avropa dövlətləri və ABŞ qanunvericiliyi praktikasında)

**A.A.MƏHƏRRƏMOV**
*Bakı Dövlət Universiteti*

Ekoloji təhlükəsizlik sferasında Avropa dövlətlərinin qanunvericiliyi kifayət qədər yaxın olsa da, bir sıra fərqləndirici xüsusiyyətləri ilə (məsələn, formalaşma tarixi, normativ-hüquqi aktların sayı və əhatəlilik dərəcəsi, nəzarət sistemi və s.) müəyyən edilir.

Fransada qüvvədə olan ekoloji qanunvericiliyin sistemləşdirilməsinin əsasları isə uzun tarixə malikdir. Tədqiqatçıların fikrincə, Fransanın təcrübəsi bir çox dövlətlərin qanunvericiliyinin sistemləşdirilməsi və təsnifatı prosesində iştirakının hüquqi-təşkilati formaları nöqteyi-nəzərindən faydalı ola bilər (16, s.373). Fransada ekoloji qanunvericiliyin sistemləşdirilməsinin əsas xüsusiyyəti ondan ibarətdir ki, o, ekoloji qanunvericiliyin əksər elementlərini əks etdirir (20, s.872). Bunlardan başqa, Fransada məcəlləşdirmə prosesləri müxtəlif hüquqi qüvvəyə malik normativ-hüquqi aktların sayının artımı nəticəsində yaranır. Bu normativ-hüquqi aktlar əksər hallarda bir-biri ilə ziddiyyət təşkil etməklə qanunvericiliyin (eyni vəziyyət RF ekoloji qanunvericiliyində də hökm sürür) əsasını təşkil edir (19, s.173).

Lakin fransız sistemləşdirilməsi anlayışı özünəməxsus xüsusiyyətlərə malikdir. İlk növbədə, qeyd etmək lazımdır ki, burada məcəlləşdirmə – qanunvericilik sisteminin elementi kimi qanunvericilik sahəsinin təsdiqinin tamamlayıcı mərhələsi hesab olunur (16, s.356). Bu zaman hüququn bu və ya digər sahələrinin fərqləndirilməsi üçün əsas meyar kimi nəzəri mülahizələr deyil, daha çox hüquqi tənzimetmənin (16, s.357) müəyyən sahəsində irihəcmli normativ material çıxış edir.

Fransanın hüquq sistemində praktiki olaraq sistemləşdirmənin tətbiq olunan bütün formaları (burada söhbət, mahiyyət etibarilə, inkorporasiyadan və birləşmədən gedir) məcəlləşdirmə adlanır. Bu zaman alimlər Fransanın müasir hüququnun sistemləşdirilməsinin böyük və kiçik, yəni əsas və ikinci dərəcəli formaları arasında fərqli cəhətləri qeyd edirlər (20, s.873-874). Əsas formalar, bir tərəfdən, inkişaf edən innovasiya (yenilik), digər tərəfdən, hüquqi hakimiyyət orqanlarının adından «fəaliyyətin fəallaşdırılmasında» ifadə olunur. Məcəlləşdirmə metodunu iki müxtəlif üsul konkretləşdirir: birincisi, birləşdirmə metodu – burada qanunverici artıq mövcud olan məcəlləni dəyişir; ikinci metod isə yeni məcəllədə nailiyyətləri və yenilikləri birləşdirərək artıq məcəlləşdirilmiş qanunları yenidən işləməkdən ibarətdir. Lakin hər iki üsul nəzəri nailiyyətlərin mahiyyətinin təzahürü üçün xidmət göstərir. yəni onlar istənilən variantlarda vahidliyi təşkil etmək üçün nəzərdə tutulur.

Fransada sistemləşdirmə prosesində digər müasir tendensiya hüququn əsaslı şəkildə təkrar işlənməsinə dair fəaliyyətin gücləndirilməsindən ibarətdir. Ümumilikdə, fransız məcəlləşdirməsi üçün ənənəvi olaraq məcəllələrin hamıya aydın olması, hər bir vətəndaş üçün münasib olmasına böyük diqqət yetirir. Bu model ədəbiyyatlarda məcəlləşdirmənin alman modeli ilə ziddiyyət təşkil edir. O, icra hakimiyyətlərinin fəaliyyətini istiqamətləndirmək üçün hüquq sahəsində ardıcıllığın və tamamlanmanın məqsədlərini müşahidə edərək yaxşı idarəetmə vasitəsi kimi çıxış edir (26, s.950).

Fransız qanunvericiliyinin müasir məcəlləşdirmə prosesinin hüquqi tənzimetmənin əsas göstəricilərinin formalaşması tendensiyası ilə müşayiət olunması təqdirəlayiq haldır. C.L.Suryunun qeyd etdiyi kimi, qanunvericilik əsas rəhbər müddəaları, eləcə də bəzən istiqamətləndirici qanunları birləşdirmək və tabe etdirmək məqsədinə xidmət edən ümumi istiqamətli prinsipləri də məcəlləşdirilməyən qanunlara daxil etməyə cəhd göstərir (20, s.873-874).

Fransada hərtərəfli məcəlləşdirmə (bunun üçün 1989-cu ildə xüsusi olaraq məcəlləşdirməyə dair Ali Komissiya yaradılmışdır) hüquqi normaların müxtəlif məcəllələrdə bu və ya digər interpretasiyalarda təkrarlanmasının qarşısını alır. Zəruri hallarda məcəllələrdə digər məcəllələrə istinadlar olunur. Belə ki, hüquq ədəbiyyatlarında əsas diqqət Fransanın Ətraf Mühit Məcəlləsində (18, s.32) digər məcəllələrə və normativ-hüquqi aktlara istinad olunmasına yetirilir və bu, Fransada məcəlləşdirmənin əsas xarakterik əlamətlərindən biridir.

Fransada ətraf mühit haqqında qanunvericiliyin məcəlləşdirilməsi 10 il davam etmişdir (13, s.39). Fransız Məcəlləsində (29) ətraf mühitin mühafizəsinə dair normalarla yanaşı, ayrı-ayrı təbii ehtiyatların istifadəsinə dair normalar da əksini tapmışdır. Lakin təbii ehtiyatların istifadəsi ilə bağlı hüquqi tənzimetmənin bəzi sahələri sistemləşdirmə prosesinə daxil edilməmişdir. Belə ki, yeraltı qaz, neft, kimyəvi maddələr sahəsində tənzimetmənin şamil olunduğu dağ-mədən hüququ normaları məcəlləşdirilmişdir (13, s.40). Bu baxımdan Fransada 16 avqust 1956-cı ildə qəbul olunmuş və 1994-1995-ci illərdə bəzi dəyişikliklər edilmiş Dekret vasitəsilə təsdiq olunmuş Dağ-mədən Məcəlləsi qüvvədədir (11, s.230-284). Fransanın Ətraf Mühit Məcəlləsində su təsərrüfatının idarə olunması, suların mühafizəsi sahəsinin kifayət qədər tənzimlənməsi ilə yanaşı, 16 dekabr 1964-cü il tarixli Su Qanunu da qüvvədədir. Bu Qanun Ətraf Mühit Məcəlləsi ilə tətbiq olunan ekoloji verginin bir hissəsi kimi nəzərdən keçirilməyən su vergisinin tətbiqini nəzərdə tutur (13, s.40). Fransada ətraf mühit haqqında qanunvericiliyin məcəlləşdirilməsi xüsusiyyətlərindən biri məhz bundan ibarət olaraq bir sıra hüquqi tendensiyalarla və reallıqlarla şərtlənir.

Fransanın Ətraf Mühit Məcəlləsi onun həcmini və mahiyyətini əks etdirən mürəkkəb və geniş struktura malikdir: burada titullara, fəsillərə, bölmələrə (seksiyalara) və məqalələrə (paraqraflara) bölünən 6 kitab vardır: Ümumi müddəalar, Fiziki mühitlər, Təbii ərazilər, Flora və fauna, Çirklənmənin, risklərin və digər neqativ nəticələrin qarşısının alınması, «Yeni Kaledoniyaya, Fransız Polineziyasına, Uollis və Futuna adalarına, Fransanın cənubdakı və Antarktikadakı ərazilərinə və Mayotaya münasibətdə tətbiqi şərtləri. Bu baxımdan məcəllədə istifadə olunan «boş fəsil» texnikası daha maraqlıdır: Məcəllənin fəslinin adı olsa da, o, boş olaraq qalır, bu fəslə yeni normalar isə sərəncamların

кöməyilə daxil edilir (13, s.41).

Məcəllədə dörd ümumi prinsip təsbit edilir. Bu prinsiplərə müvafiq olaraq qanunun müəyyən etdiyi çərçivələrdə insanların tələbatlarının təmin olunması imкanları realizə olunur:

- ehtiyatlılıq prinsipi – bu prinsipə müvafiq olaraq elmi-texniкi biliкləri nəzərə almaqla, ətraf mühitin qorunub saxlanmasına inamın olmaması dəyərin iqtisadi baxımdan məqbul olması ilə bağlı ətraf mühitə dəyən ciddi və qarşısıalınmaz ziyan risкinin aradan qaldırılmasına dair effeкtiv və müvafiq tədbirlərin qəbuluna mane olmamalıdır;
- məlum əlverişli metodlardan istifadə etməкlə, ətraf mühitə dəyən ziyan nəticəsində profilaкtiк və tənzimetmə fəaliyyəti prinsipi;
- «çirкləndirən ödəyir» prinsipi;
- iştiraк prinsipi – bu prinsipə görə təhlüкəli maddələrə və təhlüкəli fəaliyyətə dair informasiya da daxil olmaqla, hər кəs ətraf mühitə dair informasiyadan istifadə imкanına maliкdir. Bunun vasitəsilə cəmiyyət ətraf mühitə və ya şəhərin və ölкənin planlaşdırılmasında əsas təsirə maliк olan layihələrin inкişafı prosesinə cəlb olunur. Hər кəsin ətraf mühiti mühafizə etməк vəzifəsi müəyyən olunur (10, s.297).

Məcəllənin birinci кitabında çirкləndirici fəaliyyətə görə ümumi verginin ödənilməsi qaydası haqqında müddəalar əкs olunmuşdur (eкoloji vergi). Ümumiliкdə, bu verginin ödənilməsi üçün əsaslar Gömrüк Məcəlləsi ilə nəzərdə tutulmuşdur və bu müddəa Ətraf Mühitin Mühafizəsi Məcəlləsində nəzərdə tutulur; vergi qoyuluşunun obyeкtləri və subyeкtləri, çirкləndirici fəaliyyətə görə ümumi verginin ödənilməsindən azad olmanın əsasları müəyyən olunur.

İкinci кitabda su və su mühitinin, atmosferin və havanın mühafizəsi və istifadəsi şərtləri müəyyən olunur, sudan istifadə hüququnun qanunların və sərəncamların müəyyən etdiyi çərçivədə hamıya məxsus olmaları bəyan edilir. Bu кitabda su ehtiyatlarının idarə olunması, su eкosistemlərinin, sahələrinin və bataqlıqların qorunması, suyun mühafizəsi və onun çirкləndiricilərinə qarşı mübarizə, çirкli suların кeyfiyyətinin bərpa olunması, su ehtiyatlarının inкişafı və mühafizəsi, suyun iqtisadi ehtiyat кimi istifadəsinin və bu ehtiyatın paylanmasının inкişafı və s. məsələləri təmin edən ümumi prinsiplərin sistemi tətbiq olunur.

Üçüncü кitabda təbii ərazilərin hüquqi tənzimlənməsi əкs olunmuşdur. Burada meşə yanğınlarının qarşısının alınmasına və meşələrin mühafizəsinə dair normaları əкs etdirən Meşə Məcəlləsinə, eləcə də torpaqdan istifadə xəritələrində əкs olunan meşə əraziləri üzrə normalar baxımından Şəhər Tiкintisi Məcəlləsinə istinad edilir. Məcəllənin bu кitabında təbii irsin qeydiyyatı və yaxşılaşdırılmasına dair müddəalar, sahil xətti haqqında normalar, adalarla qitələri birləşdirən texniкi tiкililərə, sərnişinləri mühafizə olunan ərazilərə daşıyan dəniz nəqliyyatına münasibətdə irəli sürülən tələblər əкsini tapır, sahillərin mühafizəsi üzrə agentliкlərin yaradılması nəzərdə tutulur. Məcəllədə həmçinin milli parкların yaradılması və fəaliyyəti qaydaları formalaşdırılır (bu milli parкlara təbii qoruqlar кimi məlum olan ərazilər də birləşdirilə bilər), elmi məqsədlərlə faunanın və floranın yayılma sahələrinin mühafizəsini təmin etməк üçün ziyanın ödənilməsi və milli parкlara münasibətdə törədilən hüquq pozuntularına görə məsuliyyətə cəlb olunmaya dair normalar şərh olunur.

«Flora və fauna» adlı dördüncü кitab bioloji irsin qorunmasına və

heyvanat və bitki aləminin obyektlərinə nəzarətə dair normalardan ibarətdir. Vəhşi heyvan növlərinə münasibətdə fəaliyyət həyata keçirən təşkilatlara qarşı irəli sürülən tələblər xüsusi olaraq formalaşdırılmışdır. Məcəllənin bu hissəsində məskunlaşma mühiti ilə vəhşi heyvanların və yabanı bitkilərin növlərinin qorunması qaydaları əksini tapır. Burada xüsusi bölmə ova (onun həyata keçirilməsi qaydasına, ovun yerinə yetirilməsi üçün torpaq sahələrinin istifadəsi məsələlərinə, ov qoruqlarına, dəniz ovuna, ov ilə bağlı fəaliyyətə və dövlət mülkiyyətində olan obyektlərə) həsr olunmuşdur. Bunlardan başqa, kitabda şirin sularda balıqçılıq və onun təşkili qaydaları, dövlətin, eləcə də yerli sakinlərin balıq ovu hüquqları şərh olunaraq peşəkar və həvəskar balıq ovu tənzimlənir. Burada da planlaşdırmaya dair fəaliyyətin bu növlərinin; balıqçı təşkilatlarının fəaliyyətinə dair normaların həyata keçirilməsi zamanı su mühitinin mühafizəsinə dair tələblər əksini tapır.

Beşinci kitab ətraf mühitin çirklənməsinin, risklərin və digər neqativ nəticələrin qarşısının alınmasına həsr olunmuşdur. Burada istənilən birlik, fiziki şəxs və ya təşkilat tərəfindən istismar olunan və onlara məxsus olan, əlverişli şəraitdə yaşamaq, səhiyyə, təhlükəsizlik, kənd təsərrüfatı, təbiətin və ətraf mühitin mühafizəsi, təbii ərazilərin, abidələrin, arxeoloji irsin mühafizəsi üçün real risk yarada biləcək fabriklərə, sexlərə, anbarlara, iş yerlərinə və avadanlığın bütün növlərinə münasibətdə tətbiq olunan hüquqi müddəalar nəzərdə tutulur. Bu qaydaların ümumi mahiyyəti ondan ibarətdir ki, sadalanan obyektlərdən istifadəyə görə prefekturadan müvafiq icazə alınmalıdır. Bu zaman risk və neqativ nəticələrin qarşısının alınması prefekturanın müəyyən etdiyi tədbirlərlə həyata keçirilməlidir. Ciddi risk törətməyən avadanlıqlara görə isə bəyannamə təqdim olunur.

Fransanın Ətraf mühit Məcəlləsinin təqdirəlayiq xüsusiyyəti onun ekoloji məsuliyyətin tətbiqinə dair xüsusi hüquqi mexanizmlərin yaradılması ilə müəyyən olunan tələblər və qaydalar üzrə bilavasitə fəaliyyət göstərməsindən ibarətdir. Hər fəslin sonunda qanunvericiliyin pozulmasına görə müəyyən olunan məsuliyyət məsələləri həll olunur: onların törədilməsinə görə konkret sanksiyalar təyin etməklə, hüquq pozuntularının tərkibi formalaşdırılır; hüquq pozuntularını, məsuliyyətə cəlb olunma qaydasını, məhkəmə orqanları tərəfindən nəzərdən keçirilmə xüsusiyyətlərini müəyyən etmək səlahiyyətlərinə malik vəzifəli şəxslər sadalanır.

Ümumiyyətlə, digər ölkələrdə olduğu kimi, Fransanın da ekoloji qanunvericiliyi ətraf mühitin çirklənməsinin qarşısının alınmasına istiqamətlənir, qanunvericilik aktları isə ətraf mühitin vəziyyətinin dəyişdirilməsi üzərində nəzarət və proqnozlaşdırmanı əks etdirir. Fransada ətraf mühitin mühafizəsi sahəsində ictimai münasibətləri tənzim edən əsas normativ akt kimi Ətraf Mühit Məcəlləsi ilə yanaşı, «Ətraf mühitin mühafizəsi haqqında» 19 iyul 1976-cı il Qanunu da çıxış edir. Qanun ətraf mühitin mühafizəsinin əsas prinsiplərini, o cümlədən Fransanın ekoloji qanunvericiliyinin formalaşması və inkişafında beynəlxalq müqavilələrin əhəmiyyətini nəzərdə tutur. Qanunda həmçinin ekologiya hüququ normalarına riayət olunması üzərində nəzarət həyata keçirən orqanlar, onların səlahiyyətləri və məsuliyyəti əks olunmuşdur (8, s.300-301).

İsveçin Ətraf Mühit Məcəlləsi 1 yanvar 1999-cu ildə qüvvəyə minmişdir (22, s.34-36). Bu Məcəllə İsveç mütəxəssisləri tərəfindən

ətraf mühit haqqında qanunvericiliyin çərçivə aktı kimi müəyyən olunur. Məcəllə ona müvafiq olaraq buraxılan bir sıra nizamnamələr və müddəalarla birlikdə qüvvədədir. Məcəllənin çərçivə xarakteri onun ümumi qaydalar üzrə müxtəlif əməliyyatların ən son hədlərini müəyyən etməməsində və müxtəlif maraqları tənzim edərkən onları tam əhatə etməməkdə ifadə olunur (28). Qaydalar ətraf mühit sahəsində Ətraf mühitin mühafizəsi üzrə İsveç Agentliyi və Kimyəvi Maddələr üzrə Milli Müfəttişlik kimi mərkəzi hökumət agentlikləri tərəfindən nəşr edilən reqlamentlərdə daha səciyyəvi şəkildə müəyyən olunur. Ətraf mühit üçün təhlükəli olan bir çox əməliyyatlara münasibətdə ətraf mühit və ya regional inzibati şuralarla bağlı məhkəmələr tərəfindən verilən icazələrin alınması zəruridir; idarələrin və ya zavodların əksər hissəsi isə təsis olunana qədər hökumətin razılığını almalıdırlar. Hər bir bələdiyyədə isə nəzarət orqanı insanların sağlamlığının və ətraf mühitin zərərdən mühafizə olunmasında əhəmiyyətli rol oynayır.

Məcəllə hüquqi baxımdan daha geniş tənzimetmə sahəsinə malik aktdır. Onun tərkibinə ətraf mühitin mühafizəsinə dair normalarla yanaşı, təbii ehtiyatların istifadəsinə dair normalar, eləcə də əhalinin sanitar-epidemioloji rifahının təmini ilə bağlı müddəalar da daxil edilmişdir. Məcəllənin qəbulu zamanı qüvvədə olan, lakin onun qüvvəyə minməsindən sonra ləğv olunan 15 əsas qanun da Məcəlləyə daxil edilmişdir. Bu qanunlar: təbii ehtiyatlar; ətraf mühitin mühafizəsi; tullantıların suya atılması; kükürd tərkibli yanacaq; kənd təsərrüfatı torpaqlarının idarə olunması; ictimai sanitar-gigiyena; sağlamlığın mühafizəsi; su; meşə torpaqlarında yayılan pestisidlər; kimyəvi maddələr; ətraf mühitə dəyən ziyan; təbiətin mühafizəsi; bioloji pestisidlər (ilkin sınaqlar); genetik şəklini dəyişmiş orqanizmlər; flora və fauna (mühafizə olunan növlərə aidiyyəti olan tədbirlər) haqqında qanunlardır (21). Buna müvafiq olaraq bu aktların hüquqi baxımdan tənzimlənməsi sahəsi də Məcəllədə əks olunmuşdur. Məcəllə ekoloji fəaliyyətin növlərinin daha geniş diapazonuna aid müddəalardan ibarətdir: ayrı-ayrı çirkab su sistemləri, tullantılar, hava limanları, istilik-elektrik stansiyaları, sellüloz sənayesi və s.

Məcəllə ilə tənzimlənən münasibətlərin müxtəlifliyi onun strukturunu müəyyən edir: Məcəllə fəsillərə bölünən (bütövlükdə 33 fəsil) 7 hissədən və 500-ə qədər irihəcmli maddədən (paraqraf) ibarətdir. Ətraf mühit Məcəlləsinin müddəalarının ətraf mühitə və insan sağlamlığına təsir göstərən fəaliyyətə və tədbirlərə qarşı tətbiq olunması nəzərdə tutulur. Bu zaman bu tədbirlərin və fəaliyyətlərin digər qanunvericiliklə tənzimlənməsi prosesinə tabe olması da heç bir əhəmiyyət kəsb etmir. Deməli, Məcəllənin qaydaları və digər qanunvericilik müddəaları paralel olaraq tətbiq olunmalıdır (məsələn, «Tikinti və planlaşdırma haqqında» Qanuna görə icazənin kifayət etməməsi zamanı Ətraf Mühit Məcəlləsinə müvafiq olaraq hər hansı bir fəaliyyətin həyata keçirilməsi və ya müvafiq icazənin alınması tələb olunur).

Məcəllədə, ilk növbədə, onun məqsəd və vəzifələrinin sistemi müəyyən olunur. Məcəllənin məqsədi 1-ci maddəyə müvafiq olaraq indiki və gələcək nəsillər üçün sağlam və korlanmayan ətraf mühiti təmin etmək iqtidarında olan davamlı inkişafı qorumaqdır. Bu cür inkişaf təbiəti mühafizənin və insan fəaliyyəti nəticəsində dəyişilməsi və təbiətdən istifadə, təbii ehtiyatların şüurlu, səriştəli şəkildə idarə olunması vəzifəsini doğurması faktına əsaslanmalıdır. Məcəllə

insanların sağlamlığının və ətraf mühitin dəyəcək hər hansı bir ziyandan mühafizə olunmasını, dəyərli təbii və mədəni ətraf mühitin mühafizəsini, bioloji müxtəlifliyin qorunmasını, torpağın, suyun və ətraf mühitin istifadəsinin ümumiyyətlə ekoloji, sosial, mədəni və iqtisadi münasibətlərdə uzunmüddətli lazımi idarəetməni təmin etmək üçün tətbiq olunmalıdır. Sadalanan məqsəd və tapşırıqlar Məcəllənin bütün müddəalarının tətbiqini müəyyən edir; Məcəllənin qaydaları bu məqsədlərə daha yüksək səviyyədə nail olmaq üçün tətbiq olunmalıdır. Bu tələb isə ətraf mühitə və insan sağlamlığına təsir göstərən fəaliyyət və tədbirlərə şamil olunur (10, s.304).

Daha sonra Məcəllənin birinci hissəsində (1-6-cı fəsillər) «Ümumi yoxlama qaydaları» şərh olunmuşdur. Bu qaydalar müəyyən fəaliyyətlə məşğul olan və ya onu planlaşdıran şəxslər üçün icazəyə, təsdiqə və azad olunmaya aidiyyəti olan işlərə baxılması ilə əlaqədardır. Ümumi nəzarət qaydalarına hər zaman riayət olunmalı və Məcəllənin müddəalarının təsiri altına düşən bütün əməliyyatlara və tədbirlərə münasibətdə tətbiq olunmalıdır (məsələn, torpağın becərilməsi, kimyəvi materiallarla davranma, binaların və qurğuların tikintisi, ətraf mühit üçün təhlükəli fəaliyyət növləri, daşınma). Lakin yoxlama qaydaları daha az əhəmiyyət kəsb edən tədbirlərə münasibətdə tətbiq olunmur (məsələn, yaşayış yerinin seçilməsi və ya istirahət vaxtının müəyyən olunması).

İkinci hissə (7-8-ci fəsillər) təbiətin mühafizəsinə həsr olunmuşdur (xüsusi mühafizə olunan təbii ərazilər və ya obyektlər). Ərazilərin mühafizəsi məsələləri xüsusi torpaqlara və xüsusi mühafizə olunan rayonlara çıxış hüququnun həyata keçirilməsi xüsusiyyətlərinin müəyyən olunması ilə birgə həll olunur.

Məcəllənin üçüncü hissəsi (9-15-ci fəsillər) fəaliyyətin müəyyən növlərinə dair xüsusi şərtlərin müəyyən olunmasına həsr olunmuşdur; buraya ətraf mühit üçün təhlükəli fəaliyyət, suyun çirklənməsi ilə əlaqədar fəaliyyət, həmçinin insan sağlamlığı üçün zərərli fəaliyyət aid edilir. Məcəllənin göstərilən hissəsində ərazilərin çirklənməsinə, fəaliyyət növlərinin həyata keçirilməsi zamanı sudan istifadəyə, açıq karyerlərə, kənd təsərrüfatına və fəaliyyətin digər növlərinə münasibətdə irəli sürülən tələblər əksini tapır. Həmçinin, Məcəllənin bu hissəsində gen mühəndisliyinə, kimyəvi məhsullara və biotexniki orqanizmlərə, tullantılara və istehsalçının məsuliyyətinə dair xüsusi fəsillər fərqləndirilir.

Dördüncü fəsil (16-25-ci fəsillər) məhkəmə işlərinə baxılmasına dair müddəalardan: məhkəmə işlərinə baxılmasına dair ümumi şərtlərdən; hökumət tərəfindən işin məhkəmə baxışının məqbulluğuna baxılmasından; barəsində xitam verilən qərarların və digər aktların hökumət tərəfindən təkrarən nəzərdən keçirilməsindən; inzibati orqanlar və bələdiyyələr tərəfindən işlərə baxılmasından; məhkəmələr, ətraf mühit üzrə məhkəmələrdə məhkəmə təcrübəsi barədə müddəalardan, bu məhkəmələrdə iddiaların irəli sürülməsi prosedurlarından, Ali məhkəmədə və Ətraf mühit üzrə Ali məhkəmədə mühakimə icraatı, icazələrin, məhkəmə və digər xərclərinin yenidən nəzərdən keçirilməsi və hüquqi qüvvəsi haqqında müddəalardan ibarətdir.

Beşinci hissə 26-28-ci fəsilləri əhatə edir. Burada nəzarət, nəzarətin həyata keçirilməsinin ümumi qaydaları, müvafiq orqanlar üçün məsrəflər və mükafatlar, səlahiyyətlərin onlar tərəfindən həyata keçirilməsi qaydaları barədə müddəalar əksini tapır.

Altıncı hissə törədilən hüquq pozuntularına görə cəza tədbirlərinə (cərimələrə) həsr olunmuşdur. Ona daxil olan 29-30 fəsillərdə ətraf mühitə mənfi təsir edən hüquq pozuntularının konkret tərkibləri formalaşdırılmış, cəza və müsadirə şərtləri, törədilən hüquq pozuntularına görə sanksiyalar, ətraf mühitə mənfi təsirə görə ödəmə və rüsumların alınması müəyyən olunur.

Yeddinci hissə (31-33-cü fəsillər) ətraf mühitə dəyən ziyanın müəyyən növlərinə görə kompensasiya və digər məsələləri tənzimləyir. Xüsusilə ödənilməli olan ziyan növlərinə akvatoriyaların çirklənməsinin, qrunt sularının çirklənməsinin və onların səviyyəsinin dəyişməsinin, havanın, torpağın çirklənməsinin, səs-küyün, titrəyişin və buna bənzər digər təsir vasitələrinin də aid olduğu müəyyən edilmişdir. Ziyanın ödənilməsinə görə məsuliyyəti fəaliyyətləri ilə ətraf mühitə ziyan vuran şəxslər və yaxud müvafiq fəaliyyətin həyata keçirildiyi torpaqların mülkiyyətçisi və ya icarədarı olaraq bu cür fəaliyyətin həyata keçirilməsinə imkan verən şəxslər daşıyır. Bu hissənin yekunu olaraq ətraf mühitin bərpası üzrə sığorta və ətraf mühitə vurulan ziyanın sığortalanması məsələləri nəzərdən keçirilir və müvafiq münasibətlərin tənzimlənməsinə dair səlahiyyətlərin bir hissəsi zəruri qaydalar nəşr etdirən hökumət orqanı üçün nəzərdə tutulur.

Beləliklə, İsveçin Ətraf Mühit Məcəlləsi hüquqi tənzimetmə prosesində ətraf mühitə təsirlə əlaqədar ictimai münasibətlərin kifayət qədər geniş spektrini əhatə edir. O, bir çox hallarda təbiətdən istifadə şərtlərini müəyyən edərək ətraf mühitin mühafizəsinə dair münasibətlərin tənzimlənməsi ilə məhdudlaşmır. Məcəllənin spesifik xüsusiyyəti ondan ibarətdir ki, burada bilavasitə hüquqi qüvvəyə malik çoxsaylı normalar əksər hallarda ümumi şəkildə formalaşdırılır. Lakin Məcəllə ilə müəyyən olunan məsuliyyətin dəqiq mexanizmləri ilə təsbit edilən realizə öhdəliyi digər qanunvericiliyə istinad etmədən bu aktı ətraf mühitin mühafizəsinin və təbiətdən istifadənin təminatı baxımından daha əhəmiyyətli edir.

AFR-də məcəlləşdirmə üzrə işlər zəruri hüquqi tərtibata malik deyildir. Lakin hazırda ətraf mühitə dair bir neçə məcəllə layihəsi mövcuddur.

Almaniyada Ətraf Mühit Məcəlləsinin qəbulu vacib siyasi fəaliyyət olaraq nəzərdən keçirilir. Bu zərurəti nəzərə alaraq Federal Kansler Herhard Şröderin 10 noyabr 1998-ci ildə Alman Bundestaqında Hökumət bəyannaməsi ilə Federal Hökumətin tapşırıqlarını bəyan etməsi xüsusilə qeyd edilməlidir. Burada göstərilirdi ki, ətraf mühitin mühafizəsi sahəsində müxtəlif çoxsaylı müddəalar vahid ekoloji məcəllədə birləşdirilir. Bu zaman izafi göstərişlər ləğv edilir və bununla da, müvafiq tənzimetmədə mövcud boşluqlar aradan qaldırılır (24). Beləliklə, Almaniyada Ətraf Mühit Məcəlləsinin hazırlanması üzrə işlər əlavə proqram xarakterinə, siyasi çalarlara malikdir.

AFR Ətraf Mühit Məcəlləsinin hazırlanması işləri Fransa Məcəlləsində olduğu kimi, alimlərin və təcrübəçilərin iştirakı ilə uzun müddət ərzində davam etmişdir (5, s.39). Bu zaman müstəqil professorlar komissiyası fəaliyyət göstərmiş, onun iclasına nəzəriyyəçilər və təcrübəçilər, layihənin tərəfdarları və əleyhdarları dəvət olunmuşlar. Nəticədə bir neçə Ətraf Mühit Məcəlləsi layihəsi hazırlanmış, 1998-ci ildə isə onlardan biri rəsmi olaraq nəşr edilmişdir. Eyni zamanda, layihənin konkret müddəalarını izah etməklə, Məcəllə layihəsinə dair icmallar yazılmışdır (6, s.144-145). Daha sonra Ətraf

Mühit Məcəlləsinin əsas layihəsi ətraf mühit barədə qüvvədə olan alman qanunvericiliyinin ingilis dilində xüsusi nəşrində təhlil olunmuşdur (23).

Rus ədəbiyyatlarında da bu layihənin ümumi icmalı verilmiş və eyni zamanda Ətraf Mühit Məcəlləsinin federal səviyyədə qəbulunun AFR-in əsas qanununda təsbit olunmuş Federasiyanın səlahiyyətlərindən irəli gələrəк mümкün olmaması qeyd olunmuşdur (6, s.144-148). O.L.Duboviк layihənin materiallarının istifadəsinin bir neçə istiqamətlərini sadalayır: bu layihənin torpaqlar üçün nümunəvi model layihə кimi qəbulu; çətin təsəvvür olunan səlahiyyətlərin dəyişilməsi; Eкoloji torpaq məcəllələrinin qəbulu (6, s.148). Eyni zamanda, S.A.Boqolyubov alman hüquq sistemində yeni tendensiyanın yaranmasını qeyd edir: AFR federal səviyyədə ətraf mühitin mühafizəsinin qanunvericiliк qaydasında tənzimlənməsini müəyyən edərəк mərкəzləşdirilmiş eкoloji idarəetmənin gücləndirir (1, s.20). Alman tədqiqatçıları da öz işlərində Məcəllə layihəsinin məzmununu təhlil etməкdə davam edirlər (25). Beləliкlə, bu qanun layihəsinə münasibət birmənalı deyildir.

Ətraf Mühit Məcəlləsi qəbul olunana qədər onun tənzim edəcəyi münasibətlər кompleкsini müəyyən etməк çətindir. Bu zaman Almaniyanın ətraf mühit hüququ, bir qayda olaraq, inzibati hüququn tərкib hissəsi (26, s.594), məhz abidələrin və landşaftların mühafizə hüququ ilə yanaşı, xüsusi inzibati hüququn tərкib hissəsi кimi başa düşülür (dağ, su, balıqçılıq, ov və meşə hüququ təsərrüfat hüququna aid edildiyi кimi) (9, s.11). Çox güman кi, AFR-in Ətraf Mühit Məcəlləsi yeraltı sərvətlərin istifadəsini və mühafizəsini tənzimləyən normalardan ibarət olmayacaqdır. Almaniyada dağ-mədən qanunvericiliyinin məcəlləşdirilməsi 13 avqust 1980-ci il AFR Dağ - Mədən Qanununun qəbul olunması ilə tamamlanmışdır. Burada alman torpaqlarının dağ-mədən qanunlarına əsaslanan əvvəllər xüsusi fəaliyyət göstərən dağ-mədən qanunvericiliyi sistemləşdirilmişdir (11, s.16).

Ümumiliкdə, Almaniyanın ətraf mühitin hüququna Avropa hüququ əhəmiyyətli təsir göstərir. Bu zaman əsas etibarilə ətraf mühitin mühafizəsi, eкoloji informasiyanın əldə olunması institutunun inкişafı, ətraf mühitə təsirin qiymətləndirilməsinə dair yeni prosedur tələblərinin tətbiqi üzrə standartların AFR qanunvericiliyində dəyişiкliyə uğramasında təzahür edən ətraf mühitin alman hüququnun avropalaşması baş verir (26, s.594).

E.Rebinder Ətraf Mühit Məcəlləsinin ümumi hüquqla müəyyən olunan ətraf mühitə vurulan ziyana görə məsuliyyət sisteminə yeniliк gətirəcəyini hesab edir. Belə кi, bu layihə eкoloji ziyana görə ciddi məsuliyyətin yayılmasını nəzərdə tutur və bu cür ziyanın nəticələrinə görə pul təzminatını müəyyən edir (25).

Şübhəsiz, Ətraf Mühit Məcəlləsinin məzmununa ətraf mühitin müasir alman hüququ üçün xaraкteriк tendensiyalar da mühüm təsir göstərir. Bu tendensiyalara aşağıdaкıları aid etməк olar: 1) ətraf mühit sahəsində xüsusi terminologiyadan istifadənin, müкəmməlləşdirilmənin qanunvericiliк qaydasında gücləndirilməsi tendensiyası; 2) davamlı eкoloji inкişaf tendensiyası; 3) standartlaşdırma tendensiyası; 4) dolayı strategiyaların tətbiqi tendensiyası (iqtisadi marağın, bazar mexanizmlərinin, insanların davranışının digər stimullarının istifadəsi); 5) dövlətüstü və beynəlxalq layihələrin inкişafı və mənimsənilməsi tendensiyası (30).

Alman hüququnun tədqiqatçıları ətraf mühit qanunvericiliyinin gələcək məcəlləşdirilməsinin artıq nə əldə olunan qanunverici statusun azalmasına, nə də qanunvericilik qaydasında tərtib olunan müddəaların istisna olunmasına səbəb olmayacağını xüsusi olaraq qeyd edirlər (10, s.313).

XX əsrin 60-cı illərində baş vermiş ekoloji böhranlar zamanı ətraf mühitin mühafizəsi sahəsində dövlət idarəçiliyi bir çox dövlət orqanları tərəfindən, bir qayda olaraq, mövcud dövlət strukturları çərçivəsində həyata keçirilirdi, bəzən isə təbiəti mühafizə proqramlarının yerinə yetirilməsi üçün onların tərkibində ixtisaslaşmış bölmələr yaradılırdı. Məsələn, ABŞ-da uzun müddət suyun və atmosfer havasının mühafizəsi idarəsinin funksiyaları Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilmişdir; Yaponiyada təbiəti mühafizə funksiyaları Xarici Ticarət və Sənaye Nazirliyi və Tikinti Nazirliyi tərəfindən həyata keçirilmişdir.

70-ci illərdən etibarən iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərdə müasir təbiəti mühafizə qanunvericiliyinin qəbul edilməsi ilə müvafiq sahədə xüsusi dövlət strukturları yaradılmağa başlandı. Hazırda xüsusi orqanlar, demək olar ki, dünyanın bütün dövlətlərində fəaliyyət göstərir. Bir qayda olaraq, bu dövlətlərdə iki növ orqanlar fəaliyyət göstərir: konsultativ (məşvərətçi) və icraedici-sərəncamverici. Konsultativ orqanların fəaliyyəti ətraf mühitin mühafizəsi, inkişaf layihələrinin işlənib hazırlanması və həyata keçirilməsi prosesində ətraf mühitə təsirin proqnozlaşdırılması barədə icraedici orqanların məlumatlandırılması ilə, həmçinin müxtəlif orqanların, dövlət aparatının, təsərrüfat subyektlərinin, xüsusilə də monopoliyaların maraqlarının öyrənilməsi ilə müəyyən olunur. Müvafiq orqanlar həmçinin spesifik vəzifələr də yerinə yetirirlər. Məsələn, ABŞ-ın Qlobal Ekoloji Siyasət üzrə Şurası bir sıra sərəncamverici funksiyalar yerinə yetirir. Ətraf mühitə təsirin proqnozlaşdırılması funksiyası Böyük Britaniyada Ətraf mühitin çirkləndirilməsinə Nəzarət üzrə Kral Komissiyası, Yaponiyada isə Çirkləndirməyə Nəzarət üzrə Mərkəzi Şura tərəfindən həyata keçirilir (4, s.93).

Əksər dünya dövlətlərinin ətraf mühit qanunvericiliyinə müvafiq olaraq əsas icraedici-sərəncamverici orqanlar iqtisadi siyasətin işlənib hazırlanması, ətraf mühitin mühafizəsi proqramlarının hazırlanması və koordinasiyası, ekoloji standartların işlənilməsi, monitorinq, yerli hakimiyyət orqanlarına elmi-metodik, texniki və maliyyə yardımı, təbiəti mühafizə qanunvericiliyinin tələblərinin yerinə yetirilməsinin təmini, beynəlxalq əməkdaşlıq və digər vəzifələri yerinə yetirən müxtəlif nazirliklər, xidmətlər, agentliklər və komitələrdir. Məsələn, Ukraynada Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır. Belarusda təbiəti mühafizə funksiyasını yerinə yetirən əsas dövlət orqanları Təbii Sərvətlər və Ətraf Mühitin Mühafizəsi Nazirliyi və Meşə Təsərrüfatı Nazirliyidir.

AFR-də ekoloji idarəetmə əsasən torpaqların funksiyalarına daxildir. Federal səviyyədə ətraf mühitin mühafizəsi sferasında idarəetmə ilə 1986-cı ildə yaradılmış Ətraf Mühitin Mühafizəsi Nazirliyi məşğul olur. Lakin Nazirlik yalnız təbiəti mühafizə və radiasiya təhlükəsizliyi funksiyasını yerinə yetirməklə əsasən idarəetmə funksiyalarına malikdir (iqtisadi siyasətin planlaşdırılması və əlaqələndirilməsi, idarəetmə üzrə qanunların və normaların işlənib hazırlanması) və birbaşa olaraq ekoloji qanunvericiliyin yerinə yetirilməsinə görə məsuliyyət daşımadığından heç bir icra funksiyasına

malik deyildir (7, s.635-638). AFR-in Ətraf mühitin mühafizəsi Nazirliyinə aşağıdakı orqanlar tabedirlər: Ekoloji Federal Xidmət (Nazirliyin elmi ekspertiza fəaliyyətinə yardım, iqtisadi məlumatların toplanması və öyrənilməsi, ekoloji maarifləndirmə kimi funksiyaları yerinə yetirir); Federal Təbiəti Mühafizə Xidməti (təbiətin və landşaftların mühafizəsini həyata keçirir); Radiasiya təsirindən Mühafizə üzrə Federal Xidmət (atom enercisindən istifadə sahəsində idarəetmə funksiyaları həyata keçirir, eləcə də nüvə materiallarının və radioaktiv maddələrin dövlət mühafizəsi üzrə məsuliyyət daşıyır). AFR-də gen mühəndisliyi yolu ilə şəkli dəyişdirilmiş orqanizmlərin dövriyyəyə buraxılmasına icazə üzrə məsuliyyətli federal orqan Robert Kox İnstitutudur. Biosidlərin buraxılışına görə Əməyin və əmək səhiyyəsinin mühafizəsi Nazirliyi, bitkilərin mühafizə vasitələrinin istehsalı və istifadəsinə icazəyə görə Bioloji Federal Mərkəz məsuliyyət daşıyır. Federal orqanlar ov, təbiətin və landşaftların mühafizəsi, torpaqların ayrılması, ərazilərin təşkili su təchizatı və digər hüquqlara malikdirlər (4, s.94).

Niderland Krallığında dövlət orqanlarının üzərinə coğrafi vəziyyətinə görə suyun istifadəsi və mühafizəsi məsələləri qoyulur, suya nəzarət orqanlarının normayaradıcılıq və digər səlahiyyətləri, əyalətlər tərəfindən onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası isə parlament aktı ilə müəyyən olunur. Bu zaman su nəzarəti orqanlarının qərarları yalnız qanunlara və ictimai maraqlara zidd olarsa, ləğv oluna bilər. İspaniyada hakimiyyət orqanları zəruri kollektiv həmrəyliyə əsaslanaraq həyat səviyyəsinin saxlanması və yaxşılaşdırılması, eləcə də ətraf mühitin mühafizəsi və bərpası məqsədilə bütün təbii ehtiyatların rasional istifadəsinə nəzarət edirlər. Portuqaliyada ətraf mühit və həyat keyfiyyəti dövlət səviyyəsində ətraflı təşkil olunur, burada dövlət öz orqanları vasitəsilə ətraf mühitin mühafizəsinin qarşısını almalı və buna nəzarət etməli, ayrı-ayrı sahələrdə işlənib hazırlanan və həyata keçirilən müxtəlif proqramlara ekoloji istiqamətin də əlavə olunmasına şərait yaratmalıdır.

İsveçdə təbiəti mühafizə orqanları arasında ölkənin bütün meşə ərazilərində meşələrin idarəçiliyini həyata keçirən Meşə İdarəsi xüsusi çəkiyə malikdir; bu isə İsveç ərazisinin 60%-ni meşələrin təşkil etməsi ilə əlaqədardır. İsveçin ekologiya siyasəti bütövlükdə iki bərabər əhəmiyyətli məsələnin həllinə istiqamətlənir: ətraf mühitin mühafizəsi və oduncaq istehsalı. Bununla yanaşı, İsveç Meşə İdarəsi meşə təsərrüfatı fəaliyyəti, meşə uçotu işləri üzərində nəzarət həyata keçirir, eləcə də meşə sənayesi kompaniyalarının və xüsusi firmaların fəaliyyətini tənzimləyir. İdarənin tərkibinə Meşə Təsərrüfatı üzrə Milli Şura və regional şuralar daxildir. Bütün idarəçilik orqanları bir-biri ilə sıx əlaqədə fəaliyyət göstərirlər (15, s.64).

ABŞ-da dövlət ekoloji idarəetmə orqanlarının formalaşması XVIII əsrin sonlarına təsadüf edir (ilk federal orqan Milli Parklar Xidməti olmuşdur). Hazırda ABŞ-da təbiətdən istifadə və ətraf mühitin mühafizəsi sferasında dövlət idarəçiliyinin üç səviyyəsini ayırmaq olar: federal, ştat və yerli ekoloji idarəçilik. Bunlar isə qanunvericiliyin ekoloji tələblərinin yerinə yetirilməsi məqsədilə sazişlər, birgə planlar və layihələr əsasında bir-biri ilə sıx əlaqədə həyata keçirilir (12, s.117-180). Ekoloji böhranın kəskinləşməsi ilə əlaqədar olaraq ətraf mühitin mühafizəsi sahəsinin yenidən təşkilindən sonra federal hökumətin qarşısında duran əsas məqsədlər ekoloji siyasətin müəyyən olunması

üzrə vəzifələrin yerinə yetirilməsi, təbiəti mühafizə tədbirləri üzrə idarəçiliyin və nəzarətin həyata кeçirilməsi, texniкi, maliyyə və digər yardımların göstərilməsi oldu, ştatlar isə federal siyasətin praкtiкi realizəsi üzrə əsas öhdəliкləri öz üzərlərinə götürdülər. Yerli səviyyədə eкoloji idarəetmə isə təbiətin mühafizəsi üzrə bir sıra vəzifələrin praкtiкi həlli ilə məşğul olurlar.

Ümumiyyətlə, ameriкan hüququ ətraf mühitin mühafizəsini ictimai münasibətlərin müstəqil sahəsi кimi tanıyaraq, eкoloji cəhətdən təhlüкəsiz iqtisadi inкişaf modelinin realizəsinə istiqamətlənən кompleкs hüquq sahəsinin yaradılması yolu ilə getmişdir. ABŞ eкologiya hüququnun əsas xüsusiyyəti ondan ibarətdir кi, hüququn bu sahəsi, bir qayda olaraq, ümumi hüquq normalarına əsaslanır. Ümumi hüquq normaları normativ aкtların yoxluğu şəraitində, eləcə də qanunvericiliкdə mübahisəli məsələlərin həllində ümumi hüquq normalarının tətbiqi imкanına birbaşa göstəriş olduğu hallarda nöqsansız fəaliyyət göstərir. Bununla belə, ümumi hüquq normaları ilə yanaşı, ABŞ-da eкologiya hüququnun predmeti hesab olunan ictimai münasibətlərin tənzimlənməsinə istiqamətlənən xüsusi qanunvericiliк də qüvvədədir. Onların böyüк hissəsi «Mühafizə», «Mineral ehtiyatlar olan torpaqlar və faydalı qazıntıların çıxarılması», «Gəmiçiliк və gəmiçiliк suları» кimi mühüm qanun toplularına daxil edilmişdir (8, s.295-296). Federal qanunvericiliкdən əlavə, ayrı-ayrı ştatların da qanunvericiliyi mövcuddur. Belə кi, hər bir ştat öz ərazisində səlahiyyətləri çərçivəsində ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan rasional istifadəyə dair qanunlar qəbul edə bilər. Laкin ABŞ eкologiya hüququnun məzmununu tam dərк etməк üçün bu sistemdə qanunqüvvəli normativ aкtları da qeyd etməк lazımdır. Məhdud və xüsusi təyinatına baxmayaraq qanunqüvvəli normativ aкtlar ABŞ eкologiya hüququnda кifayət qədər mühüm rol oynayırlar.

ABŞ eкoloji qanunvericiliyi sistemində mərкəzi yeri 1969-cu ildə Konqres tərəfindən qəbul olunan və 1970-ci il yanvarın 1-dən qüvvəyə minən «Ətraf mühitin mühafizəsi sahəsində milli siyasət haqqında» Qanun tutur. Bu Qanunun qəbulu ilə ölкədə «Ətraf mühitin mühafizəsi deкadası»nın başlanğıcı qoyulmuş oldu. Qanun iкi əsas məqsədə nail olmağa yönəlmişdi: federal orqanların üzərinə ətraf mühitin mühafizəsi vəzifəsinin qoyulması (laкin bu vəzifələrin həyata кeçirilməsi onların əsas səlahiyyətlərinə uyğun olmalıdır); bu vəzifənin realizə mexanizminin müəyyən olunması. Qanun milli eкoloji siyasəti əsas prinsip кimi həm federal höкumət, həm də ştatların höкumətləri, yerli haкimiyyət orqanları və maraqlı təşкilatlar tərəfindən həyata кeçirilən siyasət olaraq müəyyən edir. Bütün federal orqanlar öz səlahiyyətlərini iqtisadi maraqlar da daxil olmaqla, digər milli maraqlara toxunmadan eкoloji cəhətdən əlverişli istiqamətdə həyata кeçirməк üçün zəruri tədbirlər həyata кeçirməlidirlər. Bunun üçün qüvvədə olan qanunvericiliyin bəyan olunan milli siyasətə uyğun həyata кeçirilməsi tələbi müəyyən olunur.

Hazırda ABŞ-da federal səviyyədə dövlət eкoloji idarəetməsinin iкi qrup orqanı mövcuddur (4, s.97-99):

1. İxtisaslaşmış orqanlar – Qlobal Eкoloji Siyasət Şurası və Ətraf Mühitin Mühafizəsi Agentliyi daxildir. Qlobal Eкoloji Siyasət Şurası digər federal orqanlardan asılı olmayaraq ətraf mühitin mühafizəsi funкsiyasını yerinə yetirir və müstəsna olaraq eкoloji məsələlərlə məşğul olur. Məsələn, ətraf mühitin vəziyyəti barədə illiк məruzələrin

hazırlanması, elmi-tədqiqat işləri, prezidentin qanunvericilik proqramının hazırlanması, federal nazirliklərin və idarələrin ətraf mühitə təsir edən fəaliyyəti üzərində nəzarət, onların fəaliyyətində təkrarçılığın qarşısının alınması və onlar tərəfindən həyata keçirilən təbiəti mühafizə tədbirlərinin koordinasiyası, təbiəti mühafizə proqramlarının hazırlanması üzrə məşvərətçi yardım, milli təbiəti mühafizə qanunlarının müddəalarının yerinə yetirilməsinin təmini üçün memorandumların və digər sənədlərin qəbulu. Ətraf Mühitin Mühafizəsi Agentliyi isə təbiəti mühafizə aktlarının (o cümlədən atmosfer havasının, dənizlər, okeanlar və yeraltı sular da daxil olmaqla, su hövzələrinin mühafizəsi, toksik maddələrin və digər tullantıların məhv edilməsi üzərində nəzarət, pestisidlərdən istifadə, radiasiyanın və səsin neqativ təsirlərinin aradan qaldırılması sahəsində 9 federal qanunun) realizəsini təmin edir, ekoloji ekspertizanın həyata keçirilməsi qaydalarının müəyyən olunması, ətraf mühitə mənfi təsirlərin qarşısının alınması və uçotu, atmosfer havasının monitorinqi və digər istiqamətlərdə normativ aktlar qəbul edir, ətraf mühitin çirkləndirilməsi üzərində vahid nəzarəti və monitorinqi, ABŞ-da bütün təbiəti mühafizə fəaliyyətinin koordinasiyasını həyata keçirir, eləcə də ştatların müvafiq orqanlarına və yerli hakimiyyət orqanlarına ekoloji məsələlərin həllində yardım göstərir.

2. İkinci qrup dövlət orqanları ənənəvi təbiəti mühafizə funksiyalarını yerinə yetirən sahəvi idarəetmə orqanları və müxtəlif ictimai münasibətləri tənzim edən ayrı-ayrı nazirliklərdir. Bu orqanların əlavə vəzifələri ətraf mühitin mühafizəsinə dair sahəvi normativ-hüquqi aktlarla müəyyən olunur. Bu qanunlar torpaqdan, meşədən və sudan istifadə ilə bağlı münasibətləri, həmçinin pestisidlərdən istifadə, heyvanat aləminin mühafizəsi və digər bu kimi məsələləri tənzimləyir. Ənənəvi nazirlik sistemində ətraf mühitin mühafizəsinə cavabdeh bölmələrin yaradılması istiqamətində əsas addım federal orqanların təşkilinin, funksiyalarının və fəaliyyətinin dəyişdirilməsinə mühüm təsir göstərmiş Ətraf mühitin mühafizəsi sahəsində milli siyasət haqqında Qanunun qəbul edilməsi oldu. Beləliklə, XX əsrin 70-ci illərinin əvvəllərindən federal səviyyədə ətraf mühitin mühafizəsi üzrə müxtəlif funksiyalar daşıyan icra orqanlarının sistemi formalaşmışdır. Bu sistemə aşağıdakı orqanlar daxildir:

1) Daxili İşlər Nazirliyinə daxil olan bir sıra idarələr: Torpaqların İdarə edilməsi Bürosu (1946-cı ildə yaradılmışdır, torpaqlardan, eləcə də digər idarələrin səlahiyyətləri hüdudları daxilindəki ərazilərdə yerin təkindən istifadənin tənzimlənməsini həyata keçirir), Milli Parklar Xidməti (1916-cı ildə yaradılmışdır, təbii ehtiyatların mühafizəsini və istifadəsini təmin edir), Balıqların və Vəhşi heyvanların mühafizəsi Xidməti (1940-cı ildə yaradılmışdır, yox olma təhlükəsi altında olan növlərin, dəniz məməlilərinin, miqrasiya edən quşların mühafizəsinə dair qanunların yerinə yetirilməsinə cavabdehdir), ABŞ Geoloji Müşahidə İdarəsi (1879-cu ildə yaradılmışdır, milli və qlobal miqyasda mineral ehtiyatların öyrənilməsini və qiymətləndirilməsini həyata keçirir, Faydalı qazıntıların çıxarılmasının lisenziyalaşdırılması haqqında Qanuna müvafiq olaraq faydalı qazıntıların çıxarılması işlərinə münasibətdə nəzarət-təftiş səlahiyyətlərinə malikdir), Meliorasiya Bürosu (1923-cü ildə yaradılmışdır, su ehtiyatlarının inkişafını idarə edir, sudan istifadəni tənzimləyir və ştatlar və yerli orqanlar tərəfindən müxtəlif su təsərrüfatı layihələrinin yerinə yetirilməsinə ümumi

rəhbərliyi həyata keçirir);

2) Kənd Təsərrüfatı Nazirliyi: Torpaqların Mühafizəsi Xidməti (1935-ci ildə yaradılmışdır, Torpaq və su ehtiyatlarının mühafizəsi haqqında Qanunun müddəalarını realizə edir, federal torpaq mühafizə proqramlarının əsas hissəsini yerinə yetirir, torpaqların vəziyyəti üzrə nəzarət həyata keçirir, zəruri məlumatların yayılmasını təmin edir), Meşə Xidməti (1897-ci ildə yaradılmışdır, Milli Meşələr Sistemi və Vəhşi Təbiət Sistemi təbii ehtiyatlarının istifadəsi və mühafizəsi üzrə idarəetmə fəaliyyətini həyata keçirir);

3) Ticarət Nazirliyi: Milli Okean və Atmosfer Administrasiyası (1970-ci ildə yaradılmışdır, meteoroloji xidmət də daxil olmaqla, atmosfer hadisələrinin öyrənilməsini və qiymətləndirilməsini həyata keçirir, okeanoqrafiya sahəsində elmi tədqiqatlar, sahil geodeziya müşahidəsi, dəniz qoruqlarının idarə edilməsi, balıq ovunun tənzimlənməsi, məməlilərin ayrı-ayrı növlərinin mühafizəsi və onlardan istifadənin tənzimlənməsi üzrə fəaliyyəti həyata keçirir). Administrasiyanın tərkibinə Okean və Atmosfer Xidməti, Peyk Xidməti, Tədqiqatlar və İnkişaf Şöbəsi, Dəniz balıq ehtiyatları Milli Xidməti, Sahil zonalarının idarə edilməsi şöbəsi və s. daxildir (3, s.427-428).

Ümumilikdə, qeyd etmək olar ki, ABŞ-da federal səviyyədə mövcud ekoloji idarəetmə sistemi idarəetmə funksiyalarının kifayət qədər ümumiliyi ilə fərqlənir. Bununla yanaşı, iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərdə ətraf mühit sahəsində qanunvericiliyin təmini vəzifəsi bir sıra hallarda daha aşağı səviyyəli dövlət orqanlarına və bələdiyyələrə tapşırılır. Məsələn, Almaniyada torpaqların təbiəti mühafizə və yerli inzibati orqanların üzərinə ətraf mühitin mühafizəsi üzrə konkret tədbirlərin keçirilməsinin təmini sahəsində müəyyən funksiyalar qoyulmuşdur. Böyük ərazilərə malik torpaqlarda isə ekoloji idarəetmə 3 səviyyədə təşkil olunur: yüksək səviyyə – əsas vəzifəsi müvafiq sahədə qanunların qəbul edilməsi olan nazirlik; orta səviyyə – ekoloji idarəetmə vəzifələrini yerinə yetirən orqanlar; aşağı səviyyə – aşağı səviyyəli inzibati orqanlar (kommunalar, dairələr, kiçik icmalar, dövlət ekoloji mərkəzləri) tərəfindən həyata keçirilir (2, s.602).

Hazırda dünyanın hər yerində bütün büdcə səviyyələrində təbiəti mühafizə tədbirlərinə xərclərin artması tendensiyası müşahidə olunur. Bu yerli orqanların özlərinin imkanlarının kifayət qədər olmamasına baxmayaraq bu səviyyədə də məqsədyönlü ekoloji siyasət həyata keçirilir. Burada ekoloji normaların pozulmasına görə ciddi cərimə sistemi xüsusi rol oynayır. Həmin ölkələrdə tətbiq olunan cərimə sanksiyaları o qədər böyükdür ki, sahibkarlar belə cərimə ödədikləri zaman bu, onların maliyyə vəziyyətinə xeyli dərəcədə təsir göstərir. Almaniyada yerli hakimiyyət orqanlarının özləri təbiəti mühafizə tədbirlərində və rekreasiya sənayesində (park, qoruq, zoopark və bağça şəbəkələrinin inkişafı) fəal şəkildə iştirak edirlər.

Daha sonra, Avstriya Konstitusiyasına görə federasiyanın səlahiyyətlərinə dağ-mədən işi, meşə təsərrüfatı, su hüququ, su anbarlarının vəziyyətinin tənzimlənməsi və saxlanması, qanunvericiliyin ümumi prinsiplərinin müəyyən olunması, torpaqların səlahiyyətlərinə isə konkretləşdirici qanunların qəbulu, təbii ehtiyatlar üzrə icra fəaliyyəti, bitkilərin xəstəliklərdən və zərərvericilərdən mühafizəsi, təbii mühitin ona mühüm təsir göstərən layihələrlə uyğunlaşması aid edilir. Böyük Britaniyada Ətraf Mühit İşləri üzrə Nazirlik əsasən koordinasiya funksiyasını yerinə yetirir və ümumi məsələlər üzrə nəzarət həyata

keçirir. Operativ idarəetmədə isə üstünlük yerli hakimiyyət orqanlarına (əsasən yerli icmalara) verilir (14, s.55).

Böyük Britaniyada ekologiya hüququ daha böyük miqyasda ABŞ-da olduğu kimi, 1970-ci illərdə inkişaf etməyə başladı. Bu dövrdə təbii ehtiyatların sistemləşdirilməsi həyata keçirildi, həmçinin ekoloji məlumatlar bazasının milli informasiya sistemi yaradıldı. Lakin Böyük Britaniyada ətraf mühitin mühafizəsi sferasında əsas diqqət əsasən istehsalat obyektlərinin təbiətə göstərdiyi neqativ təsirlərin və onların nəticələrinin müəyyən olunmasına yönəldilir. Belə ki, bu neqativ təsirlərin qiymətləndirilməsi üzrə ümumi göstərişlər müxtəlif sirkulyarlarda nəzərdə tutulur. Eyni zamanda Böyük Britaniyanın ətraf mühit sferasında ictimai münasibətləri tənzimləyən qanunvericilik aktlarında ətraf mühitin müəssisələrinin fəaliyyətinin zərərli nəticələrindən mühafizəsinin proqnozlaşdırılması mexanizminə mühüm əhəmiyyət verilir. Ümumilikdə, Böyük Britaniyanın ekoloji qanunvericiliyinin əsas istiqaməti əhalinin ətraf mühitin vəziyyəti barədə vaxtında məlumatlandırılmasından ibarətdir (8, s.299-300).

Danimarkada ətraf mühit əsas vəzifələri Ətraf Mühit Nazirliyi, regional (dairələr səviyyəsində) və şəhər hakimiyyət orqanları tərəfindən həll olunan müstəqil fəaliyyət sferasına çevrilmişdir. Regional və şəhər icra hakimiyyəti orqanları ətraf mühitin gündəlik idarə edilməsinə görə cavabdehdirlər. Ölkənin dairə idarə orqanları (regional hakimiyyətlər) planlaşdırma, nəzarət və regional miqyasda fəaliyyət istiqamətlərinin işlənib hazırlanmasını həyata keçirir, bələdiyyələr isə müvafiq fəaliyyəti şəhər səviyyəsində həyata keçirirlər. Məsələn, regional hakimiyyətlər su təchizatı sistemlərində, göllərdə, su axınlarında suyun keyfiyyətinin saxlanılması, su anbarlarını istifadəsi, ətraf mühiti çirkləndirən müəssisələrin yerləşdirilməsi və digər məsələlər üzrə planlar işləyib hazırlayır. Bələdiyyələr isə sutəmizləmə qurğularının, su təchizatı sistemlərinin yerləşdirilməsi, bərk tullantıların məhv edilməsi məsələlərini planlaşdırır.

Kanadada ətraf mühitin mühafizəsi vəzifəsi iqtisadi planlaşdırmaya və bu sahədə qərarların qəbul edilməsi prosesinə daxil edilmişdir. Belə ki, burada qanunvericilik iqtisadi sektorun fəaliyyətində ətraf mühitin mühafizəsi tələblərinin nəzərə alınmasını müəyyən edir. Kanadanın ekologiya hüququnun əsas xüsusiyyəti ondan ibarətdir ki, burada ətraf mühitin mühafizəsi, ilk növbədə, əyalətlərin yurisdiksiyasına daxil edilmişdir. Hər bir əyalətdə ətraf mühitin mühafizəsi sahəsində ictimai münasibətlərin tənzimlənməsinə istiqamətlənən tədbirlərin həyata keçirilməsi üzrə qanunlar və ya hökumət direktivləri qüvvədədir. Lakin Kanada hüquqşünaslarının fikrincə, ətraf mühit barədə qəbul edilən qərara görə məmurların məsuliyyətinin artırılması yalnız əhaliyə ətraf mühitin vəziyyəti barədə mütləq informasiyanın çatdırılması, müvafiq sahədə ictimaiyyətlə dialoqların təşkili, yoxlamaların nəticələrinin nəşri yolu ilə həyata keçirilə bilər. Məhz bu prinsip Kanadanın müasir ekoloji qanunvericiliyinin əsas prinsipi hesab olunur.

Yaponiyada da ekologiya hüququ hüququn digər sahələri arasında mühüm yer tutur. Bu inkişaf, ilk növbədə, güclü iqtisadiyyata və elmi-texniki tərəqqiyə malik, lakin ərazi baxımından çox da böyük olmayan, torpaq ehtiyatlarının məhdudluğu ilə səciyyələnən ölkə əhalisinin sıxlığı ilə şərtlənir. Artıq 1968-ci ildən etibarən Yaponiyada ətraf mühitin mühafizəsinin əsas prinsiplərini və mexanizmlərini nəzərdə tutan bir sıra

qanunların qəbul edilməsinə başlanıldı. Məsələn, «Müəssisələrin yerləşdirilməsi haqqında» 1972-ci il Qanunu, «Ekoloji ekspertiza haqqında» 1981-ci il Qanunu, «İctimai işlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi tədbirləri haqqında» 1972-ci il Qanunu, «Portlar və limanlar haqqında» Qanun, «Su hövzələrinin keyfiyyətinin yüksəldilməsi haqqında» Qanun və s.

Bütün deyilənləri yekunlaşdıraraq müxtəlif dövlətlərin ekoloji təhlükəsizliyi ilə bağlı münasibətləri tənzimləyən qanunvericilik barədə aşağıdakı nəticələrə gəlmək olar:

1. Dövlətin iqtisadi inkişafı ilə ətraf mühitin mühafizəsi, eləcə də ekoloji təhlükəsizlik bir-birilə tarazlaşdırılmalıdır. Yəni, iqtisadi inkişaf elə həyata keçirilməlidir ki, bu proses ətraf mühitin mühafizəsi, eləcə də ekoloji təhlükəsizliklə uyğunlaşdırılsın. Belə ki, BMT-nin Ətraf Mühit və İnkişaf üzrə keçirilən konfranslarının (1992-ci il Rio-de-Janeyro və 2002-ci il Yohannesburq) tövsiyələrinə müvafiq olaraq ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə sferasında davamlı inkişafa keçid zamanı inkişafın qiymətləndirilməsinin əsas meyarları kimi neqativ tendensiyaların aradan qaldırılması, müasir texnologiyaların yaradılması və digər bu kimi tədbirlərlə yanaşı, təbiətdən davamlı istifadə şəraitinin yaradılması da çıxış edə bilər (17, s.6, 22).

2. Ekologiya sahəsində mülki cəmiyyət institutlarının və dövlət strukturlarının fəaliyyətində optimal uyğunluq müəyyən olunmalıdır. Bununla belə, mülki cəmiyyətin inkişafı heç bir halda dövlətin zəifləməsi və ya ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizliyin təmini sahəsində ona həvalə edilmiş funksiyaların yerinə yetirilməsindən kənarlaşdırılması hesabına həyata keçirilməməlidir və bu zaman müvafiq sahədə qanunçuluğu və hüquq qaydasını təmin edən dövlət hakimiyyət orqanları möhkəmləndirilməlidir. Bunu isə cəmiyyətin nüfuzuna əsaslanmaqla həyata keçirmək lazımdır: hər bir konkret insandan beynəlxalq ekoloji təşkilatlara qədər.

3. Xarici dövlətlərin ekologiya qanunvericiliyinin təhlili bir sıra dövlətlərin xüsusilə də Azərbaycan Respublikasının ekoloji qanunvericiliyinin sistemləşdirilməsi üçün kifayət qədər əhəmiyyətlidir: qanunvericiliyin məcəlləşdirilməsi və ya sistemləşdirilməsinin digər forması hüquqi tənzimetmənin ümumi keyfiyyətinin pisləşməsinə gətirib çıxarmamalıdır. Qanunun təşkili ilə bağlı işlərin həyata keçirilməsi, sistemləşməyə lazımi münasibət zamanı xarici ölkələrin təcrübəsinin tədqiqi AR-in ekoloji qanunvericiliyinində müsbət əksini tapmalıdır. Bu cür tədqiqatlar müəyyən aspektdə zəruridir. Belə ki, onlar AR-in beynəlxalq səviyyədə, həmçinin ekoloji problemlərlə bağlı əlaqələrinin qurulması zamanı dövlətlərin qarşılıqlı mövqelərinin yaxşılaşmasına imkan verir. Digər tərəfdən, xarici ölkələrin qanunvericiliklərinin tədqiqi bu və ya digər dövlətdə hüququn tarixi boyu işlənib hazırlanan hər bir milli hüquq sisteminin quruluşunu, daxili mexanizmini nümayiş etdirir. Belə vəziyyət xarici təcrübənin istifadəsini obyektiv olaraq məhdudlaşdırır və hüquqi təsisatlarla ayrı-ayrı normaların bilavasitə mənimsənilməsinə imkan vermir. Məsələn, müasir Rusiya doktrinasında müvafiq məsələlər ekoloji və sanitar qanunvericilik, reklam haqqında qanunvericilik və digər bu kimi sahələrə bölünmüşdür. Buna müvafiq olaraq, Avropa ölkələrinin ətraf mühit haqqında məcəllələrinin bəzi bölmələri Rusiyanın məcəlləşdirilmiş aktının strukturu üçün nümunə kimi istifadə oluna bilməz (10, s.313).

4. Ətraf mühitin mühafizəsi sahəsində xarici dövlətlərin təcrübəsi

mütləq şəkildə ekoloji qanunvericiliyin inkişafı və sistemləşdirilməsi üçün böyük əhəmiyyətə malik olsa da, onun tətbiqi ətraflı təhlil olunmalı və ümumi qaydalara əsasən ya ekoloji qanunvericiliyin yeni realizə mexanizmlərinin axtarışı, ya da ekoloji münasibətlərin hüquqi baxımdan tənzimlənməsində müəyyən problemlərin həllinə hüquqi yanaşma üsullarının oxşarlığı ilə şərtləndirilməlidir.

5. Əksər xarici dövlətlərdə dövlətin ekoloji təhlükəsizliyi ekoloji funksiyalarla nisbətdə götürülür. Dövlətin ekoloji funksiyaları ilə ekoloji təhlükəsizliyin qarşılıqlı nisbəti isə dövlətin ekoloji funksiyalarının realizəsi metodlarından və formalarından asılı olaraq həyata keçirilməlidir.

## ƏDƏBİYYAT


1. Боголюбов С.А. Глобализация и развитие экологического законодательства. Журнал российского права, 2004, № 5.
2. Бринчук М.М. Экологическое право. Учебник. М.: Юристъ, 2003.
3. Бринчук М.М. Экологическое право. Учебник. М.: Высшее образование, 2005.
4. Гейт Н.А. Экологическое право. Курс лекций. М.: ТК Велби, 2007.
5. Дубовик О.Л. Организация эколого-правовых научных исследований в ФРГ. Экологическое право, 2003, № 3.
6. Дубовик О.Л. Экологический кодекс ФРГ. Право и политика, 2000, № 10.
7. Дубовик О.Л., Кремер Л., Любе-Вольф Г. Экологическое право. Учебник. Отв. ред. О.Л.Дубовик. М.: 2005.
8. Ерофеев Б.В. Экологическое право. Учебное пособие. М., ФОРУМ ИНФРА-М.: 2002.
9. Жалинский А., Рёрихт А. Введение в немецкое право. М.: 2001.
10. Игнатьева И.А. Теория и практика систематизации экологического законодательства России. М.: Изд-во МГУ, 2007.
11. Клюкин Б.Д. Горные отношения в странах Западной Европы и Америки (Англия, Канада, США, Франция, ФРГ). М.: 2000.
12. Краснова И.О. Экологическое право и управление в США. М.: Байкальская Академия, 1992.
13. Кромарек П. О чудо-кодексе Франции. Экологическое право, 2002, № 5.
14. Кутафин О.Е., Фадеев В.И. Муниципальное право Российской Федерации. Учебник. М.: Юристъ, 2004.
15. Лесохозяйственная информация. Сборник научно-технической информации по лесному хозяйству, № 9. ВНИИЛМ, 2002.
16. Систематизация законодательства в Российской Федерации. Под ред. А.С.Пиголкина. СПб., 2003.
17. Устойчивое развитие: ресурсы России. Под ред. Н.П.Лаверова. М.: Издательский центр РХТУ им Д.И.Менделеева, 2004.
18. Хохлявин С.А. Экологический кодекс Франции и нормы финансового харарктера, обеспечивающие его реализацию при обращении с отходами. Экологическое право. 2005, № 3.
19. Braibant G. La codification francaise. Rev. Administrative, A. 47, № 278. P.: 1994.
20. Chartier Y. Codification et autres formes de systematisation du droit a l'epoque actuelle. Revue internationale de droit compare, 1988, A. 40, № 4.
21. Duner K. The Environmental Jode. Swedish Environmental Protection Agenjy, 8 June, 2004.
22. Environmental Liability. 1999, Vol. 7, İss. 3.
23. İnter Nationes. D-53175. 2nd Edition. Bonn, 2000.
24. İnternationale Politik, 1998, № 2.
25. Rehbinder E.A. German source of inspiration? Lojus standi and remediation

duties inder the Soil Protejtion Ajt, the Environmental Liability Ajt and the draft Evironmental Jode. Environmental Law Review, 2004, Vol. 6.
26. Steinberg R. Probleme der Europaisierung des deutsjhen Umweltrechts. Arjhiv des offentlijhen Rejhts. Tubingen, Bd. 120, H. 4.
27. Stinemetz Steven D. The U.S.S.R. Digest of laws: legal reform a la russe. New Yorк university journal of international law and politijs, 1985, Vol. 17, № 4.
28. www.sweden.gov.se
29. http://www.legifrance.com
30. http://www.iuscomp.org/gla/literature/envirmt.htm#dp22#dp22.

## НАЦИОНАЛЬНОЕ ЗАКОНОДАТЕЛЬСТВО В СФЕРЕ ЭКОЛОГИЧЕСКОЙ БЕЗОПАСНОСТИ
### (в законодательной практике Европейских государств и США)

**А.А.МАГЕРРАМОВ**

### РЕЗЮМЕ

При определении концептуальных и практических аспектов экологической безопасности особое внимание должно уделяться анализу национальных законодательств зарубежных стран, в частности, США и Европейских государств. В данной сфере особое значение имеет анализ экологических законодательств и их систематизация таких ведущих государств Европы как ФРГ, Франция, Британия, Дания, Швейцария и Нидерланды. При обеспечении экологической безопасности важное практическое значение имеет и национальное экологическое законодательство США и деятельность государственных экологических ведомств. Несмотря на схожесть европейской и американской правовой системы, американская правовая система, признавая охраны окружающей среды как независимый отрасль общественных отношений, выбрала путь создании комплексно-правовой системы, направленный на реализацию экологической безопасной модели экономического развития.

**NATİONAL LEGİSLATİON ON ECOLOGİCAL SAFETY**
**(On legislation practice of USA and European states)**

**A.A.MAGERRAMOV**

**SUMMARU**

When determininq the conseptual and practical aspects of ecological safety, main attention must given to national legislation of foreign states, especially to leader European states and USA. İn this sphere analyze and codification of current ecology legislation of Germany, France, Great Britain, Denmarк, Switzerland and Netherlands is important. USA national ecology legislation and activity of ecological institutions has practic nessesity on ecological safety. Thought the similarity between European and American legal systems on egological safety sphere, American law accepts the enviroment as an independent sphere of scsiety and chose кomplex law system basing on ther realisation of ecological safety econimic developement model.